*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2024*
*Səh. ————*

**ƏHMƏDOVA AYBƏNIZ İSMAYIL QIZI.**
Azərbaycan Memarlıq və İnşaat Universiteti

# YARADICILIQ PSIXOLOGIYASININ METODOLOJI ƏSASLARI VƏ METODLARI

**Xülasə**

İnsanin sosial əhatəsi onun tələbatlarının formalaşmasına təsir edir. Yaradıcılıq psixologiyası ümümi psixologiyanın digər sahələri ilə birlikdə müasir psixolojı elmlər sisteminə daxildir. Şüur və fəaliyyətin vəhdəti prinsipinə görə şüur və yaradıcılıq üzvü vəhdət təşkil edir. Yaradıcılıq sahəsində müxtəlif dövrlərdə , müxtəlif ixtiralar edilmişdir. Psixologiyada yaradıcılıq prosesinin öyrənilməsi struktur yanaşma tələb edir. Yaradıcılıq psixologiyasının tədqiqat metodlarının müəyyən prinsiplər əsasında təsnif edilməsi cəhdləri həmişə olmuşdur.

***Açar sözlər*: psixologiya, şüur, prinsiplər, tələbat, yaradıcılıq, münasibət, yaradıcı, təfəkkür.**

***Key words*: psychology, consciousness, principles, demand, creativity, reationship, creative thinking.**

***Ключевые слова: Психология, сознанание, принципы, спрос, творчество, отношения, творческая мысль***

Məlumdur ki, hər bir elmin müstəqil elm sahəsi kimi formalaşması üçün onun özünəməxsus metodları olmalıdır. Metodu-hadisələrin tədqiqi üsulu öyrənilən hadisələrə yanaşma, elmi-idrakın dərketmə üsulu və s. kimi səciyyələndirirlər. Metod – hadisələrə, onların qarşılıqlı təsir prosesində və qarşılıqlı münasibətlərində, birinin ortaya çıxmasına digərinin səbəb olduğunu müəyyən etməyə imkan verir. Psixoloji ədəbiyyatlarda metodu psixoloji gerçəkliyi dərk etməyin üsul və vasitələri kimi təqdim edirlər. Yaradıcılıq psixologiyasının obyekti insan olduğundan, o öz predmetinə yanaşma tərzinə görə müxtəlif metodoloji yanaşmalardan istifadə edir.

Yaradıcılıq psixologiyası ümumi psixologiyanın digər sahələri ilə birlikdə müasir psixoloji elmlər sisteminə daxildir. Məhz bu nöqteyi nəzərdən yaradıcılıq psixologiyası öz predmetini müəyyənləşdirərkən ümumi psixologiyanın əsas metodoloji prinsiplərinə: determinizm, şüur və fəaliyyətin vəhdəti, şüurun fəaliyyətdə inkişafı prinsiplərinə əsaslanır.

Determinizm prinsipinə görə insanın şüur ictimai varlıqla şərtlənmişdir. Yaradıcılıq psixologiyasına tətbiq etdikdə bu o deməkdir ki, insanın sosial əhatəsi onun maraqlarına, tələbatlarının formalaşmasına, münasibətlərinə, düşüncə tərzinə, sərvət meylinə və s. təsir edir. Bütün bunlar isə yaradıcılıq prosesinə səmərəliliyi xeyli dərəcədə şəxsiyyətin psixoloji strukturu ilə müəyyən olunur ki, onun da mühüm komponentlərindən biri sərvət meylidir, dünyagörüşüdür və s. onlar şəxsiyyətin sosial əhəmiyyətini, tələbat obyektinə istiqamətini xarakterizə edir.

Sərvət meyli cəmiyyətin sərvətlərinin interpretasiyası kimi çıxış edərək, mədəniyyət fenomenlərinin: sosial münasibətlərin, elmi nəzəriyyələrin, bədii obrazların və s. yaranmasına səbəb olur, Sərvət meyli yaradıcılıq prosesinin pillələrində hər birinə (müşahidə, seçmə, təsəvvür, fantaziya) təsir etməklə bütün prosesə nüfuz edir.

Şüur və fəaliyyətin vəhdəti prinsipinə görə şüur və yaradıcılıq üzvü vəhdət təşkil edir. Onlar biri digəri ilə qarşılıqlı surətdə şərtlənmiş olmaqla, qarşılıqlı əlaqədədirlər. İnsan bu və ya digər fəaliyyəti, onun məqsədyönlülüyünü və icrasına nəzarəti müvafiq şüur aktı əsasında həyata keçirir. Eyni zamanda fəaliyyətdə şüurun formalaşmasına təsir göstərir. Buradan aydın olur ki, insanın şüuru onun fəaliyyətinin təhlili əsasında öyrənilməlidir.

Ümumi psixologiyada olduğu kimi yaradıcılıq psixologiyası sahəsində aparılan tədqiqatlarda da bu cür yanaşma həyata keçirilməlidir.

Şüurun fəaliyyətdə inkişafı prinsipinə görə hər bir ayrıca götürülmüş şəxsiyyətin şüuru bir tərəfdən bəşəriyyətin tarixi inkişafını, digər tərəfdən isə onun öz fərdi inkişafının nəticəsidir. Yaradıcılıq psixologiyasına tətbiq etdikdə bu o deməkdir ki, yaradıcılıq insanın nəinki fərdi, həm də tarixi inkişaf prosesində keyfiyyətcə dəyişir. Bu dəyişilmə təkcə yaradıcılıq şəraitinin, yaradıcı əməyin predmetinin, yaradıcılıq subyektinin, yaradıcılıq məhsulunun və bu məhsula münasibətin dəyişilməsində deyil, həm də başqa istiqamətlərdə də özünü büruzə verir. Belə ki, yaradıcılığın sosial təbiəti, sosial rolu, məzmunu və s. dəyişir.

Təsadüfi deyildir ki, Q.S.Altşuller ixtiraçı yaradıcılığın öyrənilməsinə, elmi ədəbiyyatda mövcud olan qeyri tarixi yanaşmanı haqlı olaraq tənqid edərək göstərir ki, yaradıcılığın nə isə dəyişkən bir şey olması tez-tez unudulur. Müxtəlif dövrlərdə müxtəlif ixtiralar edilmişdir. Odur ki, müasir ixtiraçının yaradıcılığına aid edilən fikri 100 il bundan əvvəlki ixtira ilə əlaqədar olan faktlarla əsaslandırmaq olmaz. Lakin, çox vaxt məhz belə edirlər, hər hansı ixtiranın tarixi təsvir olunur və öz-özlüyündə nəzərdə tutulur ki, bu nəticələr müasir tarixi məsələlərin həllində də öz qüvvəsində qalır.

Bundan başqa psixologiyada yaradıcılıq prosesinin öyrənilməsi bu prosesə sistem struktur yanaşma tələb edir. Məhz belə olduqda yaradıcılıq prosesinin bütöv mənzərəsini yenidən yaratmaq imkanları açılır. Yaradıcılıq prosesinin öyrənilməsinə sistem struktur yanaşma ənənəvi məsələləri: yaradıcı təfəkkürü, intuisiya, təhtəlşüur və digər komponentləri yeni prinsip üzrə işıqlandırmağa imkan verir. Y.A.Ponomaryovun sözləri ilə desək, sistem - struktur yanaşma yaradıcılığın tədqiq edilməsini köklü surətdə dəyişir. Çünki, bu bir tərəfdən yaradıcılıq fəaliyyətinin genezisini, strukturunu, onun müxtəlif səviyyələrinin ierarxiyasını, digər tərəfdən isə ona məqsədyönlü şəkildə təsir etməyin yol və vasitələrini müəyyən etməyə imkan verir.

Yaradıcılıq psixologiyasının tədqiqat metodları aşağıdakı tələblərə cavab verməlidir: metodların əsaslı olması (validiliyi), obyektivliyi və mötəbərliyi.

Elmi tədqiqat metodlarının obyektivliyi ilk növbədə psixi olanın obyektiv təbiətindən çıxış edib psixikanın daxili və xarici təzahürlərini birləşdirilməsini nəzərdə tutur. Yaradıcılıq psixologiyasında tədqiqatın validliyi meyarına görə tədqiqat metodları tədqiqatın məqsəd və vəzifələrinə müvafiq olmalı və nəzərdə tutulan bu və ya digər əlaməti müəyyən etmək və ölçmək imkanı verməlidir. Konkret tədqiqat metodikasını elə işləmək lazımdır ki, o, hətta müxtəlif şəraitdə təkrar edilikdə belə eyni nəticə alınsın. Bu tədqiqat metodikasının mötəbərliyi adlanır.

Yaradıcılıq psixologiyasının tədqiqat metodlarının müəyyən prinsiplər əsasında təsnif edilməsi cəhdləri həmişə olmuşdur. Ümumiyyətlə yaradıcılıq psixologiyasında tədqiqat metdodlarını aşağıdakı kimi təsnif edir:

1. elmi idrakın səviyyələrinə görə;
2. tədqiqatın məqsəd və ardıcıllığına görə;
3. tədqiqat obyekti ilə işləməyə görə;
4. öyrənilən obyektin xüsusiyyətlərinə görə;

Aparılımış təsnifata daha geniş yanaşsaq bu məsələlərin daha aydın dərk olunmasına kömək etmiş olar.

Elmi idrakın səviyyələrinə görə tədqiqat metodlarını iki yerə bölürlər :a) nəzəri tədqiqat metodları; b) emprik tədqiqat metodları.

Nəzəri tədqiqat metodları problemin müəyyənləşdirilməsi, fərziyyənin irəli sürülməsi və toplanmış faktları müəyyən etmək üçün istifadə olunur. Məhz bu metodların köməyi ilə psixi hadisələrin xüsusiyyətləri, ayrı-ayrı əlamətləri ayırd edilir. Həmin faktların ümumləşdirilməsi, sistemləşdirilməsi və təhlili ümumi və xüsusi olanı müəyyən etməyə imkan verir

Yaradıcılıq psixologiyasının tədqiqat üsullarına gəldikdə isə demək lazımdır ki, yaradıcılıq fəaliyyəti müxtəlif istiqamətlərdə: yaradıcılıq prosesi, yaradıcılıq fəaliyyəti, yaradıcı şəxsiyyətin keyfiyyətləri və yaradıcı əməyi stimullaşdıran müxtəlif amillər öyrənilir. Lakin, burada eyni bir problem müxtəlif üsullarla öyrənilməlidir. Məsələn, konkret yaradıcılıq üsulları və eləcə də, yaradıcı fəaliyyətin müxtəlif növlərində (elmi, bədii, texniki və s.) aydındır ki, fərqli metodikalarla öyrəniləcəkdir. Odur ki, yaradıcılıq psixologiyasında müxtəlif tədqiqat üsullarından istifadə edilir. Lakin, bu müxtəlifliyə baxmayaraq tətbiq edilən üsulları iki qrupda birləşdirmək olar:

1) İlkin məlumatları əldə etmək üsulları
2) Bu məlumatların qeydə alınması və işlənməsi üsulları

Birinci qrupa ümumi psixologiyanın və yaradıcılıq psixologiyasının ənənəvi problemlərinin hər hansı birini (yaradıcılıq prosesi, yaradıcılıq fəaliyyəti, şəxsiyyətin psixoloji keyfiyyətlər və s.) öyrənmək üçün uyğunlaşdırılmış üsullar daxildir:

1. Özünümüşahidə
2. Yaradıcı şəxsiyyətlərin bioqrafik məlumatlarının öyrənilməsi
3. Anket
4. Intervyu

5. Eksperiment
6. Test

Yaradıcılıq psixologiyasının ənənəvi metodları içərisində yaradıcılıq prosesində yaradıcı şəxsin özünümüşahidə etməsi başlıca yer tutur.

Müşahidə metodu da böyük əhəmiyyət daşıyır. Eksperiment metodunun tətbiqi ilə şəraitin özünün modelləşdirilməsinə ehtiyac duyulur. Sorğu metodundan da geniş şəkildə istifadə olunur. Bu metodları geniş şərh etməyə çalışaq.

Müşahidə metodu dedikdə psixi hadisələrin cərəyanına müdaxilə etmədən onu baş verdiyi təbii şəraitdə müntəzəm və məqsədəuyğun izləmək nəzərdə tutulur. Müşahidə metodu zamanı hadisələrdə heç bir süni dəyişiklik aparılmır. Hadisələr necə təzahür edirsə, o cür də müşahidə aparılır. Müşahidə metodunun tətbiqinin əsas şərtləri aşağıdakılardır:

Müşahidə məqsədyönlü olmalıdır.
Müşahidə hadisələrin təbii axarına xələl gətirməməlidir.
Müşahidə mütəşəkkil və ardıcıl surətdə təşkil olunmalıdır.
Müşahidə onu aparan subyektin subyektiv fikirlərini əks etdirməməlidir.
Əldə edilmiş nəticələr etibarlı olmalıdır.

Yaradıcılıq psixologiyasında müşahidə metodunun müxtəlif növlərindən istifadə olunur. Bunlardan, birinci növbədə geniş və məhdud müşahidəni göstərmək olar. Geniş müşahidə adətən geniş obyektləri əhatə edir. Bu zaman müşahidəçi müvafiq qanunuyğunluğu ortaya çıxartmaq üçün daha çox məktəbi, sinfi və şagirdi əhatə etməli olur. Məhdud müşahidə isə bir növ seçmə xarakter daşıyr. Bu zaman bir neçə müvafiq hal seçilir və onun əsasında aparılan müşahidələrdən müvafiq fikrə gəlmək olur.

Yaradıcılıq psixologiyasında müşahidənin epizodik və sistematik növlərindən də istifadə olunur. Adından göründüyü kimi sistematik müşahidə uzunmüddətli müşahidədir. Tədqiqatçı bir və ya bir neçə il ərzində eyni sinifdə və ya eyni şagirdlər üzərində müşahidələr aparır. Bundan fərqli olaraq epizodik müşahidə dövri xarakter daşıyır və nisbətən az vaxt sərf olunur. Bu zaman müşahidə hər rüb ərzində və ya dərs ilində bir neçə dəfə aparılır. Bütün bunlarla yanaşı, müşahidə zamanı bu və ya digər psixi hadisənin təzahürünü ortaya çıxartmaq, onun səbəblərini müəyyənləşdirmək üçün uzun müddət tələb olunur. Bundan əlavə müşahidə zamanı subyektivlik faktının təzahürü qaçınılmaz olur. Bu baxımdan yaradıcılıq psixologiyasında eksperiment metodundan geniş istifadə olunur.

Müşahidədən fərqli olaraq eksperiment metodunun köməyi ilə daha qısa müddətdə daha dəqiq nəticələr əldə etmək olar. Eksperiment (sınaq)- dəqiq hesablanmış şəraitdə, hadisə və proseslərin izlənməsinə imkan verən və təkrarlanan halda, onun yenidən lazımi nəticələrə nail olmasına imkan verən tədqiqatla hadisənin müşahidə edilməsi və elmi təcrübənin qoyulmasıdır.

Həmçinin eksperimentdə bu və ya digər hadisələr süni şərait yaradılaraq öyrənilir. Eksperimental tədqiqatın müəyyən sistemdə xüsusi tərkib hissələri vardır: eksperimentator, eksperimental şərait, eksperimental amil, eksperimental obyekt.

Eksperimentin 2 növü var: təbii və laborator. Təbii eksperiment ilk dəfə 1910-cu ildə A.F.Lazurski tərəfindən tətbiq olunmuşdur. Təbii eksperiment zamanı eksperimentator müəyyən hadisələri müşahidə etməklə əvvəlcədən düşünülmüş şəkildə situasiyalar yaradır. Məsələn, hansı materialın şagirdlərin təfəkkürünün inkişafına yüksək inkişafetdirici təsir göstərdiyini aşkara çıxarmaq üçün hazırlıq səviyyəsi eyni olan iki qrupdan birində (eksperimental qrup) təlim materialları problem situasiya yaratmaq əsasında, digərində (kontrol qrup) ənənəvi yolla öyrədilir. Hər iki qrupda şagirdlərə eyni müəllim dərs deyir və onlar bu işləri adi dərs kimi qəbul edirlər. Ona görə də heç bir həyəcan, qorxu hissi keçirmirlər. Sonra hər iki qrupda yoxlama sorğu işləri keçirələrək hansı qrupda üstünlük olduğu aşkara çıxarılır.

Yaradıcılıq psixologiyasında pedaqoji psixologiyada olduğu kimi eksperimentin müəyyənedici və öyrədici (folrmalaşadırıcı) növlərindən istifadə edilə bilər. Lakin, eksperimentin bu növü çox hallarda yaradıcılıq psixologiyasında istifadə olunmur.

Müəyyənedici ekspermentlərin köməyi ilə şagirdlərdə bu və ya digər psixi hadisəni, bacarıq və vərdişlərin, qabiliyyətələrin, qarşılıqlı münasibətlərin və s. inkişaf səviyyəsi, xüsusiyyətləri aşkara çıxarılır. Şagirdlərin davranış xüsusiyyətlərini, onların tərbiyəlilik dərəcələrini, motivlərdən asılı olaraq qavranılmasının dəyişməsini və s. kimi məsələləri də öyrədici eksperimentlərin köməyi ilə öyrənmək mümkündür.

Öyrədici (formalaşdırıcı) eksperimentlər isə müəyyən psixoloji hadisəni, qanunauyğunluğu, keyfiyyəti öyrətmək, aşılamaq, fomalaşdırmaq məqsədi daşıyır.

Öyrədici eksperiment zamanı tədəqiqatçı öyrətmək, formalaşdırmaq istədiyi bilik, bacarıq və keyfiyyətlərə dair konkret plana malik olur, iş həmin plan əsasında müəyyən ardıcıllıq və sisitemdə qurulur. Əldə edilmiş nəticələrin nə dərəcədə düzgün və obyektiv olduğunu müəyyənləşdirmək üçün öyrədici eksperiment zamanı eksperimentator kontrol qrup və ya siniflərdən istifadə edir. Öyrədici işin aparılacağı sinif və ya qrup ekspermental qrup, o biriləri isə (öyrədiləcəyi iş aparılmayan, lakin ilkin vəziyyətdə eksperimental qrupla eyni səviyyədə olan) kontrol qrup adlanır. Öyrədici eksperiment başa çatdıqdan sonra həm eksperimental, həm də kontrol qruplarda, öyrədici məsələ əsasında tapşırıq verilir. Əldə edilmiş nəticələr təhlil və müqayisə edilərək müvafiq nəticə çıxarılır.

Psixodiaqnostik metodlar içərisində sosiometriya da mühüm yer tutur. Sosiometriya latınca sositas cəmiyyət və yunanca metreo ölçmək deməkdir. Sosiometriya amerikan alimi C.Moreno tərəfindən işlənilmişdir. Şəxsiyyətlərarası münasibətləri tezliklə və nisbətən dəqiqliklə müəyyən etmək üçün bu metodikadan istifadə edirlər. Sosiometriya metodunun köməyilə qrupdaxili qarşılıqlı münasibətlərin dinamikasını, qrupdaxili və qruplararası ünsiyyət prosesini müəyyənləşdirmək, psixoloji qarşılıqlı təsirin səviyyəsini və xarakterini aşkar etmək mümkündür. Bir texniki üsul kimi sosiometriya qarşılıqlı münasibətləri öyrənmək üçün əlverişlidir. Psixologiyada onun müxtəlif variantları işlənilmişdir. Sosiometriya

hansı formada işlənilirsə işlənilsin onun nəticələrini müşahidə və eksperiment yolu ilə dəqiqləşdirmək lazımdır.

Şəxsiyyətlərarası münasibətləri və ictimai rəyi öyrənməkdən ötrü tətbiq edilən metodikalardan biri də intervyudur. İntervyu 2 şəxsin qarşılıqlı ünsiyyətini nəzərdə tutur: biri digərinə informasiya çatdırır, o isə onu təhlil edib mənimsəyir. Qarşıya qoyulmuş məqsədə müvafiq olaraq müəyyən informasiyanı almaq üçün verbal kommunikasiya prosesindən istifadə yolu ilə sorğu aparılması intervyu adlanır.

Bundan başqa yaradıcılıq psixologiyasında istifadə edilən metodlardan biri də anket metodudur. Bu üsul vasitəsilə suallara yazılı cavab alınır. Anket üsulunun üstün cəhəti qısa müddət ərzində bu və ya digər məsələ haqqında müxtəlif şəxslərin rəyinin öyrənilməsinin mümkün olunmasıdır. Anket üsulundan sosioloji tədqiqatlarda daha geniş miqyasda istifadə edilir.

Psixologiyının başqa elm sahələrində olduğu kimi yaradıcılıq psixologiyasında da riyazi-statstik metodlardan istifadə olunur. Bu metod vasitəsi ilə müşahidə ve eksperiment zamanı əldə olunmuş nəticələrin dəqiqliyini, etibarlılığını və asılılıq əmsalının əhəmiyyətlilik dərəcələrini müəyyən etməyə imkan verir.

**Ahmadova Aybaniz**

**SUMMARY**

**METHODOLOGICAL FOUNDATIONS AND METHODS OF CREATIVE PSYCHOLOGY**

This article is about method, psychology, the object of creative psychology, and the methods of creative psychology. İt is about different directions of creative activity. This article consists of the method of Sosiometry and the relations among persons. İt is used episode and systematic kinds of observation in creative psychology. A person's social environment affects the formation of his demands. Creatively psychology is included in the system of modern psychological sciences along with other branches of general psychology. According to the principles of the unity of consciousness and activity , consciousness and creativity form a unity. In the field of creativity , different inventions were made in different periods. There have always been attempts to classify the research methods of creative psychology based on certain principles.

**Ахмедова Айбениз,**

**РЕЗЮМЕ**

**МЕТОДОЛОГИЧЕСКИЕ ОСНОВЫ И МЕТОДЫ ТВОРЧЕСКОЙ ПСИХОЛОГИИ**

Эта статья о методе, психологии овъекте творческой психологии и методы творческой психологии, это о разных направлениях творческой. Это статья состаит из метода социометрии и отношений между людми. В творческой рсихологии используются эпизодический виды наблюдения.

Социальная среда человека влияет на формирование его потребностей. Креативная психология входит в систему современных психологических наук наряду с другими направлениями общей психологии. Согласно принципам единства сознания

И творчества образует единство. В области творчества в разные периоды делались разные изобретения. Исследование творческого процесса в психологии требует стрикурного подхода. Всегда были попытки классифицировать методы исследования творческой психологии на основе определенных принципов

**Ədəbiyyat.**

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə., Psixologiya, Bakı, Maarif, 1989.

2. Bayramov Ə.S., Əlizadə Ə.Ə., Sosial Psixologiya, Bakı, Qapp, Poliqraf korparasiyası, 2003

3. Baxşəliyev Ə.T. Azərbaycanda psixoloji fikrin inkişafı, Bakı, Maarif, 1991, 292 s. 4. Əliyev B.Ş., Əliyev K.R., Cabbarov R.V., Mustafayev M.Ş. Müxtəlif psixoloji məsələlərdə kreativlik anlayışının öyrənilməsinin konseptual əsasları. Psixologiya, 2001, № 1-2, s. 3-10. 5. Əliyev B.Ş., Əliyev K.R., Cabbarov R.V. Pedaqoji psixologiya, Bakı: 2011, 254 s.

6. Əlizadə Ə.Ə., Təxəyyül. Bakı: ADPU, 2006, 166 s.

7. Məmmədov A.U. Yaradacılıq psixologiyası. Bakı, ADPU, 2000, 100 s. 8. Богоявленская Д. Б. Психология творческих способностей. М. 2002

***Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Məhəbbət Əsədova***